


# AZƏRBAYCAN RESPUBLİKASININ MÜVAFİQ QANUNVERİCİLİYİ İLƏ TÜTÜNÇƏKMƏ QADAĞAN OLUNAN YERLƏRDƏ APARILMIŞ MÜŞAHİDƏ TƏDQİQATINA DAİR

# HESABAT

# 2024

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**MÜVAFİQ QANUNVERİCİLİYİ İLƏ**
**TÜTÜNÇƏKMƏ QADAĞAN OLUNAN YERLƏRDƏ**
**APARILMIŞ MÜŞAHİDƏ TƏDQİQATINA DAİR**

# HESABAT

**Bakı – 2024**

Bu sənəd *Vital Strategies* tərəfindən idarə edilən və Bloomberg Philanthropies tərəfindən maliyyələşdirilən Vital Strategies təşkilatının ayırılmış vəsaiti hesabına həyata keçirilən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) "Azərbaycanda tütünlə mübarizə üzrə kompleks tədbirlərinin təşviqi" layihəsi çərçivəsində Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə tütünçəkmə qadağan olunan yerlərdə 2024-cü ildə aparılmış müşahidə tədqiqatının nəticələrinə aiddir.

Layihənin koordinatoru olaraq, İSİM-in Əhalinin sağlamlığı şöbəsinin müdiri Tofiq Musayev tədqiqatın təşkilini və həyata keçirilməsini əlaqələndirmişdir.

Layihəyə verdiyi dəstəyə görə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinə və İSİM-in direktoru Qəhrəman Haqverdiyevə, o cümlədən tədqiqatın təşkili, aparılması, təhlili və hesabatın hazırlanmasında iştirak edən İSİM-in əməkdaşlarına təşəkkür edilir.

# Mündəricat

Ön söz ........................................................................................................ 4

Qısa xülasə ........................................................................................................ 5

Metodologiya. Məlumatın toplanması ........................................................................................................ 6

Sorğunun nəticələri ........................................................................................................ 9

Taksi, metro stansiyalarının yeralti keçidlərinə dair nəticələr ........................................................................................................ 9

Kafe və restoranlara dair nəticələr ........................................................................................................ 12

Nəticələrin təhlili və müzakirəsi ........................................................................................................ 16

Tütündən istifadənin nəticələrindən qorunmanın əsas prinsipləri ........................................................................................................ 18

Tütündən istifadənin azaldlmasına və ətraf mühitdəki tütün tüstüsünün təsirinin qarşısının alınmasına yönəlmiş zəruri mübarizə tədbirləri ........................................................................................................ 18

*Əlavə 1.* Azərbaycan Respublikasının Qanunvericiliyi (çıxarışlar) ........................................................................................................ 20

*Əlavə 2.* Tütünçəkmə qadağan olan yerlərdə aparılan tədqiqatın müşahidə vərəqəsi *(kafe və restoranlar üçün)* ........................................................................................................ 24

*Əlavə 3* Tütünçəkmə qadağan olan yerlərdə aparılan tədqiqatın müşahidə vərəqəsi *(taksi və metro stansiyalarının yeraltı keçidləri üçün)* ........................................................................................................ 26

# Ön söz

Bu nəşr “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının Qanununun və digər qanunvericilik aktlarının müvafiq maddələrinə riayət olunma səviyyəsinin qiymətləndirilməsinə dair hesabatdır.

Tütün vaxtından əvvəl ölüm, xəstəlik və əlillik hallarının qarşısı alına bilən əsas səbəbidir. Tütünçəkmə ürək xəstəlikləri və insult, ağciyər xərçəngi və xroniki obstruktiv ağciyər xəstəliyi kimi əsas qeyri-infeksion xəstəliklər yaradır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, tütündən istifadə edən insanların təxminən yarısı orta hesabla vaxtından 15 il əvvəl ölür. Bu gün tütün dünyada böyüklər arasında on nəfərdən birinin ölümünə səbəb olur (ildə yeddi milyon) və səkkiz aparıcı ölüm səbəbinin altısı üçün risk amilidir. Hazırkı tendensiyalar davam edərsə, vaxtından əvvəl ölüm hallarının 80%-i aşağı və orta gəlirli ölkələrdə baş verməklə, tütün 2030-cu ilədək hər il dünyada 8 milyondan çox insanın həyatına son qoyacaq. Təcili tədbirlər görülməzsə, bu əsrin sonunadək tütün 1 milyarddan çox insanı məhv edə bilər. Tütün epidemiyası artıq səhiyyə problemi çərçivəsindən çıxaraq törətdiyi təhlükələrə görə qlobal miqyas almışdır.

Bunu nəzərə alaraq, Azərbaycan Respublikası 2005-ci ildə “Tütünə qarşı mübarizə haqqında” Ümumdünya Səhiyyə Təşkilatının Çərçivə Konvensiyasına qoşuldu. Bu Konvensiya tütün istehlakı nəticəsində ölüm hallarının azaldılmasına yönəldilən və bütün dünyada tütün epidemiyasına qarşı qlobal mübarizəni nəzərdə tutan ilk beynəlxalq sazişdir. Dünya ölkələri tərəfindən 2003-cü ildən etibarən imzalanan Konvensiya tütün məmulatlarının istehsalını, satışını və istifadəsini tənzimləyən bəşəriyyətin ilk beynəlxalq razılaşmasıdır. O, ictimai yerlərdə siqaret çəkməyi və tütün məmulatlarının hər hansı formada reklamını qadağan edir. Çərçivə Konvensiyasının Tərəfləri tütün epidemiyasına qarşı mübarizəyə qoşularaq öz əhalisinin sağlamlığının qorunmasını öhdələrinə götürmüşlər. Bu məqsədlə ÜST 2008-ci ildə MPOWER adlı sübutlara əsaslanan altı tütünə nəzarət tədbirləri üzrə texniki paket hazırlamışdır ki, bu da tütündən istifadənin azaldılmasına və insanların həyatının xilas edilməsinə yönəldilir.

**Monitor**: Tütün istehlakının və profilaktik strategiyaların monitorinqi

**Protect**: İnsanların tütün tüstüsündən mühafizəsi

**Offer**: Tütündən imtina üzrə kömək təklifi

**Warn**: Tütünlə bağlı təhlükələrə dair xəbərdarlıq

**Enforce**: Tütünün reklamına, satışının stimullaşdırılmasına və sponsorluğuna qoyulmuş qadağaların tətbiqi

**Raise**: Tütün məmulatlarına qoyulan vergilərin artırılması

Son illər Avropa ölkələrində tütünçəkməyə qarşı rəsmi səviyyədə sərt tədbirlər görülür. Bu tədbirlər əhalinin passiv tütünçəkmədən xilas olunmasına və insanların tütünçəkmədən imtina

etməsinə yönəldilib. Hətta BMT-nin 2030-cu ilədək qəbul etdiyi Dayanıqlı İnkişaf Məqsədlərinin əksəriyyətinin tütünlə mübarizəyə birbaşa və ya dolayı aidiyyəti var. Təsadüfi deyil ki, 2017-ci ilin 31 may – Ümümdünya Tütünsüz Gününün mövzusu məhz "Tütün – inkişaf üçün təhlükədir!" adlandırılmışdır.

Azərbaycanda tütünçəkmənin məhdudlaşdırılması istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi davam edir və son zamanlar bu sahədə ciddi addımlar atılıb. Azərbaycan Respublikası Prezidenti tərəfindən 1 dekabr 2017-ci il tarixdə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq olunmuşdur. Son zamanlar Azərbaycan ictimaiyyətinin diqqət mərkəzində olan bu Qanun Azərbaycan Respublikası əhalisinin sağlamlığının qorunması, sağlam həyat tərzinin təbliği, uşaqların və gənclərin sağlam böyüməsi və inkişafı, zərərli vərdişlərə aludəçiliyin profilaktikası, tütün məmulatlarının istifadəsinin və tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirlərinin azaldılması istiqamətində fəaliyyətin hüquqi əsaslarını müəyyən edir.

Tütünçəkmənin qadağan olunduğu bir sıra yerlərdə Qanunun müvafiq tələblərinə riayət olunma səviyyəsini qiymətləndirilmək məqsədi ilə, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən (İSİM) "Azərbaycanda multisektoral tütünlə mübarizə mexanizmlərinin təkmilləşdirilməsi" layihəsi çərçivəsində 2018-ci ilin oktyabr-noyabr aylarında müşahidə tədqiqatı aparılmışdır. 2024-cü ilin aprel-iyul aylarında isə "Azərbaycanda tütünlə mübarizə üzrə kompleks tədbirlərinin təşviqi" layihəsi çərçivəsində müqayisəli müşahidə tədqiqatı aparılmışdır. Layihə *Bloomberg Philanthropies* və *Vital Strategies* tərəfindən dəstəklənir.

Müvafiq qurumları Qanuna riayət olunmanın səviyyəsi ilə bağlı sübutlarla təmin etmək, qanunun məqsədəuyğun tətbiq olunması üçün prioritetlər barədə məlumatlandırmaq tədqiqatın əsas vəzifələrindəndir.

## Qısa xülasə

Tütündən istifadənin geniş yayılmış asılılığa çevrilərək hər il milyonlarla insanın həyatını əlindən alan və sağlamlığına zərər vuran qlobal epidemiya səviyyəsinə çatdığı bir dövrdə tütünə qarşı mübarizə beynəlxalq ictimaiyyətin qarşısında duran vacib vəzifələrdən biridir. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu bu istiqamətdə atılmış ən vacib addımlardan biridir. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, "Əhalinin sağlamlığının qorunması haqqında", "Tütün və tütün məmulatları haqqında" Azərbaycan Respublikasının qanunlarından, "Tütün məmulatlarının

istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktlardan ibarətdir.

Çox tərəflərli səmərəli əməkdaşlıq və strateji yanaşma ilə Azərbaycanda "Tütünə qarşı mübarizə haqqında" Ümumdünya Səhiyyə Təşkilatının Çərçivə Konvensiyasınanın 5.3-cü Maddəsinə uyğun olaraq tütünlə mübarizə üzrə kompleks tədbirlərinin təşviqi layihəsinin icrası məqsədilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununun müvafiq maddələrinə, xüsusilə də tütün çəkilməsinə icazə verilməyən yerlərə (kafe, restoran, taksi, metronun yeraltı keçidləri) dair şərtlərə riayət olunma səviyyəsinin qiymətləndirilməsi nəzərdə tutulmuşdur. Bunları nəzərə alaraq, müşahidə tədqiqatının aparılması məqsədəmüvafiq hesab edilmiş və 2024-cü ilin iyun ayında həyata keçirilmşdir.

## Metodologiya. Məlumatın toplanması

Tədqiqatda seçmə, müşahidə vərəqəsinin hazırlanması, sahə işləri prosedurları və məlumatların idarə olunması üçün standartlaşdırılmış metodologiyadan istifadə edilmişdır.

Sorğuya hazırlıq işləri 2024-cü ilin aprel ayında başlanmışdır. Tədqiqat üçün "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununun **10-cu maddəsinin** (Tütün çəkilməsinə icazə verilməyən yerlər) **10.1.4** (restoranlar, kafelər, barlar daxil olmaqla, ictimai-iaşə obyektlərində), **10.1.11** (yerüstü qapalı və yeraltı piyada keçidlərində), **10.1.12** (müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobuslarda, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitələrində və taksi minik avtomobillərində) bəndləri, eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 3 aprel tarixli 127 nömrəli qərarı ilə təsdiq edilmiş "Tütün çəkmək üçün xüsusi ayrılmış yerlərə dair Tələblər" və Azərbaycan Respublikasının Baş Nazirinin 17 aprel 2018-ci il tarixli 159 nömrəli qərarı ilə təsdiq edilmiş "Bakı Metropolitenindən istifadə Qaydaları"ndakı dəyişikliklər əsas götürülmüşdür (bax: *Əlavə 1*).

Tədqiqatın coğrafi parametri olaraq Bakı şəhərindəki 10 metro stansiyalarının yeraltı keçidləri, 30 taksi fəaliyyəti ilə məşğul olan minik avtomobilləri və Bakı şəhərinin 10 rayonunda yerləşən (Abşeron rayonu istisna olmaqla) 40 kafe və 20 restoran götürülmüşdür. Kafe və restoranlar üçün hər rayon ərazisində 2 klaster (məhəllə) olmaqla və hər klasterin xəritə sərhədlərini keçməməklə, göstərilmiş mərkəzi nöqtənin ətrafında yerləşən 2 kafe və 1 restoran sərbəst seçilmişdir. Məhəllələr seçildikdən sonra xəritələr əldə edilmiş, sərhədləri müəyyənləşdirilmişdir (Şəkil 1).

Tədqiqatın keçirilməsi üçün protokollara uyğunlaşdırılmış sorğu alətləri (taksi və metro stansiyalarının yeraltı keçidləri üçün 14 sualdan, kafe və restoran üçün isə 27 sualdan ibarət müşahidə vərəqələri) hazırlanmışdır (bax: *Əlavə 2, 3*). Müşahidə vərəqələrində göstərilən suallar əsasında müşahidə vasitəsi ilə seçilmiş ictimai və qapalı məkanlardan aşağıdakı göstərilən məsələlərə aid məlumatların toplanılması planlaşdırılmışdır:

- ► "Tütün çəkmək qadağandır" yazısının və ya işarəsinin olmasının təmin edilməsi;
- ► Müştərilər / işçilər / sürücülər / piyadalar / metro istifadəçiləri tərəfindən tütündən istifadə edilməsi;
- ► Qanunla icazə verilən yerlərdə tütün çəkmək üçün havalandırma sistemi ilə təmin olunan və ya açıq havada olan xüsusi yerlər olduğu halda həmin yerlərin təsdiq olunmuş tələblərə uyğun təşkil edilməsi.

Tədqiqat müşahidə vərəqəsi vasitəsilə, xüsusi təlim keçmiş intervüyerlər tərəfindən seçilmiş qapalı və ictimai yerlərdə (kafe, restoran, taksi, metro stansiyalarının yeraltı keçidləri) müşahidə formatında aparılmışdır. Tədqiqat zamanı intervüyerlər müşahidə vərəqələrindəki sualları oxuyaraq müşahidələrini məlumat toplama formasında qeyd etmişdilər. Məlumatların işlənib hazırlanması və statistik təhlil İSİM-in mütəxəssisləri tərəfindən həyata keçirilmişdir.

Məkana daxil olmazdan əvvəl, məlumat toplama formasına daxil olma vaxtı qeyd olunmuşdur. Məlumatların toplanması gizli, yəni başqaları üçün açıq-aşkar olmamaqla aparılmışdır.

## Şəkil 1. Seçilmiş coğrafi ərazilər üzrə nümunə

***Sabunçu rayonu***




*Klaster 1*




*Klaster 2*




***Nəsimi rayonu***




*Klaster 1*



*Klaster 2*



Kafe və restoranlarda, metronun yeraltı keçidlərində bütün aidiyyəti sahələr (tualet, məkanın girişində əlavə şüşəbənd/tikili, məkanın açıq əraziləri, məsələn, həyəti), taksi minik avtomobillərində sürücü və sərnişin tərəfindən tütünçəkmə hallarının baş verib-verməndiyi müşahidə edilmiş və məlumat toplama formasında olan bütün tələblərə əməl edilmişdir.

Müşahidə aparılan yerlərdə Qanunla tələb olunan qadağa işarələrinin olub-olmamasına diqqət yetirilmiş və məlumat toplama formasında qeyd olunmuşdur.

Sorğu aprel - iyul ayında keçirilmiş və avqust ayında toplanmış məlumat üzrə sorgular.az platforması ilə məlumat bazası yaradılmış və təhlil olunaraq hesabat hazırlanmışdır.

## SORĞUNUN NƏTİCƏLƏRİ

"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununun əsas məqsədi tütün tüstüsünün təsirinə məruz qalmanı azaltmaq və ya aradan qaldırmaqdan ibarətdir. Aparılmış tədqiqatın əsas göstəricisi "Azərbaycanda multisektoral tütünlə mübarizə mexanizmlərinin təkmilləşdirilməsi" layihəsi çərçivəsində tütünçəkmə qadağan olunan yerlərdə (kafe, restoran, taksi, metro stansiyalarının yeraltı keçidləri) tütünçəkmənin müşahidə edilib-edilməməsidir.

Sorğu Bakı şəhərinin 10 rayonunda 40 kafe və 20 restoran olmaqla 60 müəssisədə, Bakı şəhərindəki 10 metro stansiyalarının yeraltı keçidlərində və hər metro stansiyasının ətrafında yerləşən taksi minik avtomobillərinin duracaq yerlərindən taksilərdən (ümumilikdə 30 taksi) istifadə etməklə müşahidə aparılmışdır. Məlumat toplayanlar nahar və ya şam yeməyi vaxtında, günün pik saatlarında müşahidələr aparmışdır. Müşahidə müddəti kafe və restoranlar üçün daha kiçik yerlərdə təxminən 5-10 dəqiqə, daha böyük yerlərdə 30-40 dəqiqə, yeraltı keçiddə təxminən 20-30 dəqiqə davam etmişdir. Taksi minik avtomobili üçün müşahidə müddəti taksiyə minməklə 5-10 km məsafə yol getdiyi vaxtı əhatə etmişdir.

## Taksi, metro stansiyalarının yeraltı keçidlərinə dair nəticələr

Azərbaycan Respublikasının "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanununun 10-cu maddəsinin 10.1.12. və 10.1.13. bəndlərində göstərildiyi kimi taksi minik avtomobillərində, metropoliten stansiyalarının vestibüllərində, keçidlərində, platformalarında və vaqonlarda tütün çəkmək (siqaret, qəlyan, elektron siqaret daxil olmaqla) qadağandır.

***<u>Tütünçəkmənin qadağan olması barədə bir və ya daha çox işarənin müşahidəsi</u>***

"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununun 10.2-ci maddəsinə əsasən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilat rəhbərləri bu Qanunun 10.1-ci

maddəsində göstərilən yerlərdə hər kəsin yaxşı görə biləcəyi lövhələrdə “Tütün çəkmək qadağandır” yazısının və ya işarəsinin olmasını təmin etməlidirlər.

Müşahidə aparılan metro stansiyalarının bütün yeraltı keçidlərində tütünçəkmənin qadağan olunduğu barədə işarələr mövcud idi. Əldə olunan nəticələr *Cədvəl 1*-də verilmişdir.

**Cədvəl 1. Tütünçəkmənin qadağan olunduğu barədə bir və ya daha çox işarənin müşahidəsi**

| **Metro stansiyalarının adları** | “Koroğlu” | “Nəriman Nərimanov” | “Əhmədli” | “Neftçilər” | “Gənclik” | “Memar Əcəmi” | “Xalqlar dostluğu” | “Qara Qarayev” | “20 Yanvar” | “İnşaatçılar” |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **İşarələrin sayı** | 18 | 12 | 12 | 24 | 6 | 8 | 10 | 12 | 14 | 8 |

Müşahidə aparılan 30 taksi minik avtomobillərinin arasında 3-də tütünçəkmənin qadağan olunduğu barədə işarələr qeyd olunmuşdır.

***<u>Tütün tüstüsünün qoxusunun olub-olmamasının müşahidə edilməsi</u>***

Ətraf mühitdəki tütün tüstüsü tütünçəkmənin həyata keçirildiyi və ya daha əvvəl həyata keçirilmiş olduğu yerin atmosfer havasında olan, o cümlədən tütünçəkməni həyata keçirən şəxs tərəfindən nəfəslə buraxılan tütün tüstüsüdür. Vətəndaşların sağlamlığının ətraf mühitdəki tütün tüstüsünün təsirindən və tütündən istifadənin nəticələrindən qorunması sahəsində hüquqlarına riayət edilməsi, ətraf mühitdəki tütün tüstüsünün təsiri və tütün istifadəsi nəticəsində yaranan xəstəliklərin, əlilliyin, vaxtından əvvəl ölüm hallarının qarşısının alınması tütündən istifadənin nəticələrindən qorunmanın əsas prinsipləridir. Tütün tüstüsünün qoxusunun olub-olmamasını təsbit etmək, Qanuna riayət olunmanın mənfi göstəricisidir.

Taksi, metro stansiyalarının yeraltı keçidlərində aparılan tədqiqatın nəticəsinə görə, 30 taksidən 7-də, 10 metro stansiyalarının yeraltı keçidlərindən 2-də siqaret qoxusu qeyd olunmuşdur (*Cədvəl 2*). 2018-ci ildə keçirilən tədqiqatın nəticələri ilə müqayisədə azalma müşaiət olunur. *(Cədvəl 2.1)*

**Cədvəl 2. Tütün tüstüsünün qoxusunun olub-olmamasının müşahidəsi**




**Cədvəl 2.1. Tütün tüstüsünün qoxusunun olmasının 2018-ci ildə keçirilən tədqiqatın nəticələri ilə müqaisəsi**




***Tütünçəkmə hallarının müşahidə edilməsi***

Tütün tüstüsünün qoxusunun mənşəyini tapmaq çətindir və buna görə də məhz tütünçəkmə qadağan olunduğu yerdə tütünçəkmənin baş verdiyini dəqiqləşdirmək vacib idi.

Müşahidə aparılan 10 metrostansiya üzrə 2 yeraltı keçiddə tütünçəkmə halları müşahidə olunmuşdur. Siqaret çəkənlərin yarısı metro istifadəçiləri (piyadalar), yarısı isə keçidlərdə olan obyekt satıcıları idi. Müşahidə göstərir ki, tütünçəkmə halları zamanı siqaret və elektron siqaret bərabər həcmdə çəkilirdi.

Müşahidə aparılan taksilərdən istifadə edərkən 1 tütünçəkmə halı qeyd olunmuşdır. Bir neçə taksidə sürücü tərəfindən müşahidə aparan şəxsdən siqaret çəkmək üçün icazə almaq cəhdi edilmişdir (Cədvəl 3).

**Cədvəl 3. Yeraltı keçidlərdə tütünçəkmə hallarının müşahidə edilməsi**




***Cədvəl 3.1*** **Yeraltı keçidlərdə tütünçəkmə hallarının 2018-ci ildə keçirilmiş sorğunun nəticələri ilə müqayisəsi**




## Kafe və restoranlara dair nəticələr

Azərbaycan Respublikasının "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanununun 10.1.4-cü maddəsində göstərildiyi kimi, kafe və restoranlarda tütün çəkmək (siqaret, qəlyan, elektron siqaret daxil olmaqla) qadağandır.

Qanun kafe və restoranlarda tütünçəkməni qadağan etdiyinə görə, Qanunun 10.3.-cü maddəsinə əsasən, həmin yerlərdə tütün çəkmək üçün havalandırma sistemi ilə təmin olunan və ya açıq havada olan xüsusi yerlər təşkil edilə bilər (lakin həmin yerlərin yaradılması Qanunla məcbur edilmir).

Kafe və restoranlarda tualetlər də daxil olmaqla, məkanın bütün aidiyyəti sahələri (tualet, məkanın girişində əlavə şüşəbənd/tikili, məkanın açıq əraziləri, məsələn, həyəti) müşahidə edilmişdir.

***"Tütün çəkmək qadağandır" yazısının və ya işarəsinin olub-olmamasının müşahidə edilməsi***

Müşahidə aparılan yerdə Qanunla tələb olunan qadağa işarələrinin olub-olmamasına diqqət yetirilmişdir. Müşahidəçinin daxil olduğu 20 restorandan 12-də və 40 kafedən 25-də işarə qeyd olunmuşdur (Cədvəl 4). 2018-ci ildə bu göstəricilər 17 işarə (restoran) və 35 işarə (kafe) kimi göstərilmişdir (Cədvəl 4.1).

**Cədvəl 4. Kafe və restoranlarda "Tütün çəkmək qadağandır" yazısının və ya işarəsinin olub-olmamasının müşahidəsi**



**Cədvəl 4.1. Kafe və restoranlarda "Tütün çəkmək qadağandır" yazısının və ya işarəsinin olmasının 2018-ci ildə keçirilmiş sorğunun nəticələri ilə müqayisəsi**




Müşahidə aparılan 60 məkandan 3 restoranda və 11 kafedə əlavə şüşəbənd tikili qeyd edilib ki, onların üçündə tütünçəkmənin qadağan olunduğu barədə işarə mövcuddur.

***<u>Tütünçəkmə hallarının müşahidə edilməsi</u>***

Kafe və restoranlarda tütünçəkmə halının müşahidəsi zamanı 20 restorandan 12-də, 40 kafedən 23-də tütünçəkmə halı qeyd olunmuşdur (Cədvəl 5). Çəkilən tütün məhsullarının 37,4%-i siqaret, 43,2%-i qəlyan, 19,4% isə elektron siqaretlər idi.

Müşahidə aparılan əlavə şüşəbənd tikililərdən 11-də tütünçəkmə müşahidə edilməmişdir.

**Cədvəl 5. Kafe və restoranlarda tütünçəkmə hallarının müşahidə edilməsi**



**Cədvəl 5.1 Kafe və restoranlarda tütünçəkmə hallarının 2018-ci ildə keçirilmiş sorğunun nəticələri ilə müqayisəsi**




***Kafe və restoranlarda külqabıların müşahidə edilməsi***

Qanun tütünçəkmə qadağan edilən məkanlarda külqabıların olmasını qadağan etməsə də, onların mövcud olması Qanuna riayət olunmanın mənfi göstəricisi ola bilər. 20 restorandan 16-də masalar üzərinədə külqabı müşahidə olunmuşdur ki, bunlardan 5-də siqaret kötüyü var idi. 40 kafedən isə 29-da masalar üzərinədə külqabı müşahidə olunmuşdur ki, bunlardan 13-də siqaret kötüyü var idi (Cədvəl 6).

**Cədvəl 6. Kafe və restoranlarda külqabıların müşahidəsi**



**Cədvəl 6.1. Kafe və restoranlarda külqabıların sayının 2018-ci ildə keçirilmiş sorğunun nəticələri ilə müqayisəsi**




***<u>Tütünçəkmə ilə bağlı əlavə göstəricilər</u>***

► Kafe və restoranların 38-də siqaret qoxusu qeyd olunmuşdur. 2018-ci ildə bu rəqəm 42 təşkil edirdi.

► 60 məkandan 9-da tualetində siqaret qoxusu qeyd olunmuşdur. 2018-ci ildə bu rəqəm 22 təşkil edirdi.

► Müşahidə aparılan kafe və restoranların 2-nin tualetində (döşəmənin üzərində, künclərdə və s.) siqaret kötüyü qeyd olunmuşdur. 2018-ci ildə bu rəqəm 6 təşkil edirdi.

► Yalnız 2 kafedə Qanuna uyğun xüsusi ayrılmış tütünçəkmə yeri müşahidə olunmuşdur.

## NƏTİCƏLƏRİN TƏHLİLİ VƏ MÜZAKİRƏSİ

Qanunla tələb olunan qadağa işarələrinin olub-olmamasını müşahidə edərkən məlum olmuşdur ki:

► *Taksilərin yalnız 3-də həmin işarələr qeyd olunmuşdur.*

► *Metronun yeraltı keçidlərində işarələr var*

► *20 restorandan 6-da işarə yoxdur*

► *40 kafedən 15-də işarə yoxdur.*

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 212.2-ci madəsinə əsasən "Siqaret çəkmək qadağandır" xəbərdarlıq yazısının və ya işarəsinin olmasının təmin edilməməsinə görə vəzifəli şəxslər dörd yüz manat məbləğində, hüquqi şəxslər min manat məbləğində cərimə edilir. Nəzərə alınmalıdır ki, elə "Tütün və tütün məmulatı haqqında" qanuna əsasən, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər (taksi

sürücüləri) də bu mənada vəzifəli şəxs hesab olunurlar və barələrində 400 manat cərimə tətbiq edilə bilər.

Tütünçəkmə hallarının müşahidəsi zamanı əldə olunan nəticələr:

► *30 taksidən 7-də qoxu var – 1 taksidə tütünçəkmə qeyd olunmuşdır;*

► *2 metronun yeraltı keçidində qoxu var – 2 metronun yeraltı keçidində tütünçəkmə qeyd olunub;*

► *20 restorandan 13-də qoxu var – 12-də də tütünçəkmə qeyd olunub;*

► *40 kafedən 26-da qoxu var – 23-də də tütünçəkmə qeyd olunub.*

Tütün tüstüsünün qoxusunun mənşəyini tapmaq çətin ola bilər və buna görə də məhz tütünçəkmə qadağan olunduğu yerdə tütünçəkmənin baş verdiyini dəqiqləşdirmək vacibdir. Belə ki, 7 taksidə siqaret qoxusu qeyd olduğu halda, yalnız 1 taksidə tütünçəkmə halı müşahidə olunmuşdır. Tütün tüstüsünün qoxusunun olması Qanuna riayət olunmanın mənfi göstəricisidir. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 212.1-ci madəsinə əsasən bu Məcəllənin 299, 305, 306.4, 318 və 322.0.4-cü maddələrində nəzərdə tutulan yerlər istisna olmaqla, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş digər yerlərdə tütünçəkməyə görə otuz manat məbləğində cərimə edilir. Həmçinin İnzibati Xətalar Məcəlləsinin 212.5-ci maddəsinə əsasən, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş yerlərdə (tütün çəkmək üçün təşkil edilmiş xüsusi yerlər istisna olmaqla) tütün çəkilməsinin qarşısının alınmamasına görə — vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər min iki yüz manat məbləğində cərimə edilir.

Müşahidədən əldə olunan faktlar ictimai yerlərdə tütünçəkməni qeyd-şərtsiz qadağan edən qanunun sərt olması məsələsini bir daha aktuallaşdırır.

Qarşıda duran digər mühüm bir vəzifə insanları ətrafa yayılan tütün tüstüsünün təsirindən mühafizə etməkdir. Bilmək vacibdir ki, qapalı şəraitdə, hətta havalandırma sistemi olduqda belə, tütün tüstüsünün təsirini təhlükəsiz səviyyəyə endirmək qeyri mümkündür. Bunun üçün bütün ictimai və qapalı ərazilərdə tütün çəkilməsinin tamamilə qadağan edilməsi tələb olunur. Nə qədər qəribə səslənsə də, qadağalar nəinki çəkməyənləri, eyni zamanda siqaret çəkənləri qorumağa çalışır, çünki qapalı şəraitdə siqaret çəkənlərin özləri tütün tüstüsünün ikiqat təsirinə məruz qalırlar.

Eləcə də, siqaret çəkməyənləri, xüsusilə də yeniyetmə və gəncləri tütün məmulatlarının dolayı reklamı və stimullaşdırılmasından qorunması olduqca vacibdir.

Yeniyetmə və gəncləri tütün vitrinlərinin həvəsləndirici təsirindən qorumaq üçün pərakəndə satış məntəqələrində tütün məmulatlarının görünüşü tam qadağan edilməli, satışı stimullaşdıran

heç bir element olmadan yalnız tütün məmulatlarının qiymətini əks edən mətn siyahısına icazə verilə bilər.

Həmçinin tütün məmulatlarının hər bir qutusunda yazılı xəbərdarlıqla yanaşı, eyni zamanda şəkilli mesajların əks olunması da əhəmiyyətlidir. Tütün istehsalçıları tütün məmulatlarının istifadəsini stimullaşdırmaq məqsədi ilə onları yeni dad, ətir, istifadə rahatlığı, keyfiyyət, etibar, imic və bu kimi digər aldadıcı parametrlərlə təmin edir, bununla da, xüsusilə yeniyetmə və gənclərdə tütünlə bağlı yanlış təəssürat yarada bilir.

## TÜTÜNDƏN İSTİFADƏNİN NƏTİCƏLƏRİNDƏN QORUNMANIN ƏSAS PRİNSİPLƏRİ

- ► Vətəndaşların sağlamlığının ətraf mühitdəki tütün tüstüsünün təsirindən və tütündən istifadənin nəticələrindən qorunması sahəsində hüquqlarına riayət edilməsi;
- ► Ətraf mühitdəki tütün tüstüsünün təsiri və tütün istifadəsi nəticəsində yaranan xəstəliklərin, əlilliyin, vaxtından əvvəl ölüm hallarının qarşısının alınması;
- ► Tütündən istifadənin nəticələrindən qorunma hüquqlarının təmin edilməsi üçün dövlətin və bələdiyyələrin, fərdi sahibkarların, hüquqi şəxslərin və digər qurumların məsuliyyəti;
- ► Ətraf mühitdəki tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi zamanı sistemli yanaşma, bu tədbirlərin həyata keçirilməsinin fasiləsizliyi və ardıcıllığı;
- ► Həyat və sağlamlığın qorunmasının tütün istehsalçılarının mənafelərindən üstünlüyü;
- ► Dövlətin, bələdiyyələrin, vətəndaşların, tütün təşkilatları ilə əlaqədar olmayan fərdi sahibkarların, hüquqi şəxslərin və qanunvericiliyə uyğun olaraq yaradılmış digər qurumların qarşılıqlı fəaliyyəti;
- ► Ətraf mühitdəki tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsinin aşkarlığı və səmərəliliyinin müstəqil qiymətləndirilməsi;
- ► Tütündən istifadənin zərəri və ətraf mühitdəki tütün tüstüsünün ziyanlı təsiri barədə əhalinin məlumatlandırılması.

## TÜTÜNDƏN İSTİFADƏNİN AZALDILMASINA VƏ ƏTRAF MÜHİTDƏKİ TÜTÜN TÜSTÜSÜNÜN TƏSİRİNİN QARŞISININ ALINMASINA YÖNƏLMİŞ ZƏRURİ MÜBARİZƏ TƏDBİRLƏRİ

- ► Tütün məmulatlarının satışında həvəsləndirmə üsullarının məhdudlaşdırılması tütün tüstüsünün təsirinin qarşısının alınmasına və tütündən istifadənin azaldılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsinin təşkili;

- ► Tütündən istifadənin zərəri və ətraf mühitdəki tütün tüstüsünün ziyanlı təsiri barədə əhalinin maarifləndirilməsi və məlumatlandırılması;
- ► Kütləvi informasiya vasitələrində tütündən istifadənin zərəri və ətraf mühitdəki tütün tüstüsünün ziyanlı təsiri barədə biliklərin təbliği;
- ► Yetkinlik yaşına çatmayanlara tütün məmulatlarının satışının və onların tütündən istifadə etməsinin qadağan olunması;
- ► Tütün məmulatlarının reklamının və satışının stimullaşdırılmasının qadağan edilməsi;
- ► Vətəndaşlara tütündən istifadənin dayandırılmasına, tütün asılılığının və tütündən istifadə nəticəsində yaranan xəstəliklərin müalicəsinə yönəlmiş tibbi yardım göstərilməsi.

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİ

## (*Çıxarışlar*)

**“Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında”**

**Azərbaycan Respublikasının Qanunundan çıxarış**

**Maddə 10. Tütün çəkilməsinə icazə verilməyən yerlər**

10.1. Azərbaycan Respublikasında tütündən istifadənin məhdudlaşdırılması və tütün tüstüsünün ətraf mühitə ziyanlı təsirinin azaldılması məqsədi ilə aşağıda göstərilən yerlərdə tütün çəkilməsi qadağandır:

10.1.1. təhsil və tərbiyə müəssisələrində, habelə onların ərazilərində;

10.1.2. səhiyyə və tibbi-reabilitasiya müəssisələrində, habelə onların ərazilərində;

10.1.3. idman yarışları və başqa kütləvi tədbirlərin keçirildiyi binalarda və obyektlərdə, habelə onların ərazilərində;

10.1.4. restoranlar, kafelər, barlar daxil olmaqla, ictimai-iaşə obyektlərində;

10.1.5. ticarət obyektlərində;

10.1.6. məişət obyektlərində;

10.1.7. sosial xidmət müəssisələrində;

10.1.8. yerləşdirmə vasitələrində;

10.1.9. teatr və kinoteatrlarda, sirk binalarında, sərgi və nümayiş salonlarında, oxu zallarında, kitabxanalarda, muzeylərdə, habelə digər mədəniyyət obyektlərində;

10.1.10. uşaq meydançalarında;

10.1.11. yerüstü qapalı və yeraltı piyada keçidlərində;

10.1.12. müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobuslarda, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitələrində və taksi minik avtomobillərində;

10.1.13. metropoliten stansiyalarının vestibüllərində, keçidlərində, platformalarında və vaqonlarda;

10.1.14. hava nəqliyyatı vasitələrində, dəmiryolu qatarlarında, su nəqliyyatı vasitələrində;

10.1.15. hava və dəniz (çay) limanlarının inzibati binalarında, dəmir yolu vağzallarında, avtovağzallarda (avtostansiyalarda) və avtobusların dayanacaq məntəqələrində;

10.1.16. liftlərdə və çoxmənzilli yaşayış binalarının ümumi istifadədə olan yerlərində;

10.1.17. taksafonlarda;

10.1.18. yanacaqdoldurma məntəqələrində, o cümlədən tezalışan maddələrin saxlandığı bina və müəssisələrdə, habelə bu maddələrin daşındığı nəqliyyat vasitələrində;

10.1.19. mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq digər müəssisə, idarə və təşkilatlarda, iş yerlərində.

10.2. Mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilat rəhbərləri bu Qanunun 10.1-ci maddəsində göstərilən yerlərdə hər kəsin yaxşı görə biləcəyi lövhələrdə “tütün çəkmək qadağandır” yazısının və ya işarəsinin olmasını təmin etməlidirlər.

10.3. Bu Qanunun 10.1.3-cü, 10.1.4-cü, 10.1.5-ci, 10.1.8-ci, 10.1.14-cü (su və dəmiryolu nəqliyyatında), 10.1.15-ci və 10.1.19-cu maddələrində göstərilən yerlərdə tütün çəkmək üçün havalandırma sistemi ilə təmin olunan və ya açıq havada olan xüsusi yerlər təşkil edilə bilər.

10.4. Tütün çəkmək üçün xüsusi ayrılmış yerlər sanitar-gigiyenik normalara və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tələblərə cavab verən şəkildə təchiz edilməlidir.

**Bakı Metropolitenindən istifadə**
**Q A Y D A L A R I**
**(Çıxarışlar)**
(Bu Qaydaların 5.1.2-ci yarımbəndi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 17 aprel 2018-ci il 159 nömrəli Qərarı ilə yeni redaksiyada verilmişdir)

5. Bakı Metropolitenində qadağalar
5.1. Bakı Metropolitenində aşağıdakılar qadağandır:
5.1.2. stansiyaların vestibüllərində, keçidlərində, platformalarında və vaqonlarda tütün çəkmək;

**Artur Rasi-zadə**
**Azərbaycan Respublikasının Baş naziri**
**Bakı şəhəri, 17 aprel 2018-ci il**
**№ 159**

**"Tütün çəkmək üçün xüsusi ayrılmış yerlərə dair Tələblər"dən çıxarış**
(Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 3 aprel tarixli 127 nömrəli qərarı ilə təsdiq edilmişdir)

**2. Tütün çəkmək üçün xüsusi ayrılmış qapalı yerlərə dair tələblər**

2.1. Tütün çəkmək üçün xüsusi ayrılmış qapalı yerlər (bundan sonra – xüsusi qapalı yerlər) yalnız tütün çəkənlər üçün nəzərdə tutulur (bütün növ qəlyanlar və elektron siqaretlər də bu tələblərin təsir dairəsində tütün məmulatlarına bərabər tutulur) və aşağıdakı tələblərə cavab verməlidir:
2.1.1. xüsusi qapalı yerlər bina daxilində insanların ümumi gediş-gəliş yerlərindən, kütləvi toplanma, istirahət və gözləmə sahələrindən kənarda yerləşdirilməlidir;
2.1.2. xüsusi qapalı yerlər bütün tütün çəkilməyən yerlərdən tam təcrid edilməli, girişi və çıxışı bir qapıdan ibarət olmalıdır;
2.1.4. xüsusi qapalı yerlər özü açılan və bağlanan avtomatik və ya özü bağlanan qapılarla təchiz olunmalıdır;
2.1.5. xüsusi qapalı yerlərin daxilində görünən yerlərdə tütün əleyhinə, tütün çəkmənin zərərlərinə dair çap və digər maarifləndirici materiallar yerləşdirilməlidir;
2.1.6. xüsusi qapalı yerlərin girişində "Tütün çəkmək üçün xüsusi ayrılmış yer" və "Tütün çəkmək səhhətiniz üçün zərərlidir" və "18 yaşadək şəxslərin girişi qadağandır" yazılarının, yaxud işarələrinin olması təmin edilməlidir;
2.1.7. xüsusi qapalı yerlərdə təhlükəsizlik tələbləri təmin edilməli və yanğınsöndürmə qurğuları quraşdırılmalıdır;
2.1.8. xüsusi qapalı yerlərdə siqaret kötükləri və ya onun hər-hansı bir hissəsi, eləcə də digər tütün məmulatları tullantılarının toplanması məqsədi ilə metaldan hazırlanmış xüsusi külqabılar (tullantı qabları) yerləşdirilməlidir;
2.1.9. xüsusi qapalı yerlərin sanitariya-gigiyena normalarına cavab verməsi və mütəmadi təmizlik işlərinin aparılması təmin edilməlidir;
2.1.10. tütün məmulatları üçün nəzərdə tutulmuş külqabılar və bu məqsədlə istifadə edilə biləcək digər tullantı qabları mütəmadi olaraq qapalı tutumlara boşaldılaraq, tütünçəkmə qadağan edilən yerlərdən, sahələrdən kənarlaşdırılmaqla, məişət tullantıları üçün nəzərdə tutulmuş konteynerlərə atılmalıdır.
2.2. Xüsusi ayrılmış qapalı yerlər havalandırma sistemi ilə təchiz edilməlidir.
2.3. Havalandırma sistemi aşağıdakı tələblərə uyğun olmalıdır:

2.3.1. xüsusi qapalı yerlər tütün çəkmək qadağan olunan yerlərə nisbətən mənfi hava təzyiqi altında saxlanılmalıdır. Mənfi hava təzyiqi yaratmaq üçün mexaniki sistem bütün iş saatlarında işləməlidir;
2.3.2. xüsusi qapalı yerlərdən mexaniki havalandırma sistemi ilə xaric olan hava tütün çəkilməyən digər sahələrin havalandırma və kondisioner sistemlərinin havası ilə qarışmamalıdır;
2.3.3. mexaniki havalandırma sistemi xüsusi qapalı yerin havasının bir saat ərzində azı 10 dəfə dəyişməsini təmin etməlidir;
2.3.4. mexaniki sistem vasitəsilə xüsusi qapalı yerlərdən çıxarılan hava binanın girişindən və ya çıxışından, pəncərələrdən, havalandırma sistemlərinə təmiz hava daxil olan yerlərdən, tikinti obyektlərinin mühəndis-kommunikasiya təminatı tələblərinə uyğun olaraq damörtüyü səviyyəsinə qədər uzaqlaşdırılmalıdır.

### 3. Tütün çəkmək üçün xüsusi ayrılmış açıq yerlərə dair tələblər

3.1. Tütün çəkmək üçün xüsusi ayrılmış açıq yerlər (bundan sonra – xüsusi açıq yerlər) yalnız tütün çəkənlər üçün nəzərdə tutulur (bütün növ qəlyanlar və elektron siqaretlər də bu tələblərin təsir dairəsində tütün məmulatlarına bərabər hesab edilir) və aşağıdakı tələblərə cavab verməlidir:
3.1.1. xüsusi açıq yerlər binaların giriş və çıxışlarından, ümumi gediş-gəliş yerlərindən kənarda yerləşdirilməlidir;
3.1.2. xüsusi açıq yerlərdə "Tütün çəkmək üçün xüsusi ayrılmış yer" yazısının olması təmin edilməlidir;
3.1.3. xüsusi açıq yerlər ərazisində siqaret kötükləri və ya onun hər hansı bir hissəsi, eləcə də digər tütün məmulatlarının tullantıları üçün metaldan hazırlanmış xüsusi külqabılar (tullantı qabları) yerləşdirilməlidir;
3.1.4. siqaret kötüklərini və ya onun hər hansı bir hissəsini, eləcə də digər tütün məmulatlarının tullantılarını nəzərdə tutulmuş yerdən kənara atmaq qadağandır;
3.1.5. xüsusi açıq yerlərin sanitariya-gigiyena normalarına cavab verməsi və mütəmadi təmizlik işlərinin aparılması təmin edilməlidir.

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (çıxarışlar)

**Maddə 212. Tütün məmulatının istehlakına dair məhdudiyyətlərə riayət edilməməsi**

**212.1.** Bu Məcəllənin 299, 305, 306.4, 318 və 322.0.4 - cü maddələrində nəzərdə tutulan yerlər istisna olmaqla, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş digər yerlərdə siqaret çəkməyə görə - otuz manat məbləğində cərimə edilir.

**212.2.** Müəssisələrdə, idarələrdə, təşkilatlarda tütün çəkmək üçün xüsusi ayrılmış yerlərin sanitar-gigiyenik normalara və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tələblərə cavab verən şəkildə təchizinin və görünən yerlərdə "Tütün çəkmək qadağandır" yazısının və ya işarəsinin olmasının təmin edilməməsinə görə – vəzifəli şəxslər dörd yüz manat məbləğində, hüquqi şəxslər min manat məbləğində cərimə edilir.

**212.3.** Yetkinlik yaşına çatmayanlara tütün məmulatı almaqla, verməklə, tütün məmulatından istifadəni təklif və ya tələb etmək yolu ilə onların tütündən istifadə prosesinə cəlb edilməsi – yüz manat məbləğində cərimə edilir.

**212.4.** Tütün məmulatları tullantılarının ətraf mühitə atılmasına görə – əlli manat məbləğində cərimə edilir.

**212.5.** "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş yerlərdə (tütün çəkmək üçün təşkil edilmiş xüsusi yerlər istisna olmaqla) tütün çəkilməsinin qarşısının alınmamasına görə – vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər min iki yüz manat məbləğində cərimə edilir.

**Maddə 299. Hava nəqliyyatında tütünçəkmə**

Hava nəqliyyatında tütünçəkməyə görə – yüz manat məbləğində cərimə edilir.

**Maddə 305. Dəmiryolu nəqliyyatında müəyyən edilməmiş yerlərdə tütünçəkmə**

Dəmiryolu nəqliyyatında müəyyən edilməmiş yerlərdə tütünçəkməyə görə – qırx manat məbləğində cərimə edilir.

**Maddə 306. Metropolitendən istifadə qaydalarının pozulması**

**306.4.** Eskalatorun sürahisini çıxarmağa, zərurət olmadan “Stop” açarından istifadə etməyə, stansiyaların vestibüllərində, keçidlərində və platformalarında, vaqonlarda tütün çəkməyə, qatarın hərəkəti zamanı vaqonun qapılarını açmağa, qatarın yola düşməsini ləngitməyə, özbaşına dəmir yoluna düşməyə, qatarın idarəetmə kabinəsinə, xidməti - texniki otaqlara, ventilyasiya şaxtası köşklərinə, tunellərə və metropolitenin işçiləri üçün nəzərdə tutulan çəpərlənmiş ərazilərə daxil olmağa, açıq oddan, pirotexniki qurğulardan (fişəng, partlayıcı və sair) istifadə etməyə görə – əlli manat məbləğində cərimə edilir.

**Maddə 318. Dəniz və çay nəqliyyatında müəyyən edilməmiş yerlərdə tütünçəkmə**

Dəniz və çay nəqliyyatında müəyyən edilməmiş yerlərdə tütünçəkməyə görə – qırx manat məbləğində cərimə edilir.

**Maddə 322. Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydalarının pozulması**

**322.0.** Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydalarının pozulmasına, yəni:

**322.0.4.** Müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobusda, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitəsində və taksi minik avtomobilində tütün çəkilməsinə görə – qırx manatdan əlli manatadək məbləğdə cərimə edilir.

**Maddə 428. Reklam haqqında qanunvericiliyin pozulması**

**428.10.** Bu Məcəllənin 428.1. – 428.9. maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla, reklamı qadağan olunmuş məhsulların, texnikanın, xidmətlərin reklamına, habelə reklam yayımının qanunla müəyyənləşdirilmiş qayda və tələblərinə əməl edilməməsinə görə – vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan iki min manatadək məbləğdə cərimə edilir.

**428.11.** Bu Məcəllənin 428.1, 428.2, 428.3, 428.4 və 428.10-cu maddələrində nəzərdə tutulmuş əməllərin teleradio yayımçısı tərəfindən törədilməsinə görə – vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

**Maddə 455. Etil (yeyinti) spirti, alkoqollu içkilər və ya tütün məmulatı ticarəti qaydalarının pozulması**

**455.1.** Etil (yeyinti) spirti, alkoqollu içkilərin və ya tütün məmulatlarının satışı qaydalarının pozulmasına görə – əlli manatdan səksən manatadək cərimə edilir.

**455.2.** Etil (yeyinti) spirti, alkoqollu içkilərin və ya tütün məmulatlarının yetkinlik yaşına çatmayanlara satılmasına görə–- yüz manat məbləğində cərimə edilir.

*Əlavə 2*

**Tütünçəkmə qadağan olan yerlərdə aparılacaq tədqiqatın**

## MÜŞAHİDƏ VƏRƏQƏSİ

*(kafe və restoranlar üçün)*

### *HİSSƏ I. MƏKAN (YER) BARƏDƏ MƏLUMAT*

1. Məkanın / müəssisənin adı : ________________________________________
2. Ünvan *(rayon qeyd edilməklə)*: ________________________________________
3. Məkanın növü *(yalnız birini seçin)*:
   - ☐ Kafe
   - ☐ Restoran
4. Müşahidənin tarixi: __ / _________ / _______
5. Məlumat toplayanın adı / kodu: ______________________
6. Məkana daxil olma vaxtı: ______________________
7. Məkandan xaric olma vaxtı: ______________________
8. Müşahidənin nəticəsi:
   - ☐ Tamamlanıb *(10-cu suala keçin)*
   - ☐ Tamamlanmayıb
9. Müşahidə tamalanmayıbsa, səbəb: ______________________
   - ☐ Məlumat toplayanın məkana girişinə icazə verilmir
   - ☐ Məkan işləmir
   - ☐ Digər ________________________________________

### *HİSSƏ II. MÜŞAHİDƏ BARƏDƏ MƏLUMAT*

10. Daxil olduğunuz məkanda / yerdə tütünçəkmənin qadağan olunduğu barədə bir və ya daha çox işarə və ya yazı var?
    - ☐ Bəli (____ədəd) ☐ Xeyr
11. Daxil olduğunuz məkandan/yerdən siqaret qoxusu gəlir?
    - ☐ Bəli ☐ Xeyr
12. Daxil olduğunuz məkanda / yerdə kimsə tütün məmulatı çəkir?
    - ☐ Bəli ☐ Xeyr
13. Tütün məmulatından istifadə edənlər hansı növ məmulatdan istifadə edir?
    - ☐ Siqaret (____ nəfər)
    - ☐ Qəlyan (____ nəfər)
    - ☐ Elektron siqaret (____ nəfər)
14. Daxil olduğunuz məkanda / yerdə tütün məmulatlarından istifadə edənlərin yaxınlığında uşaq və yeniyetmələr var?
    - ☐ Bəli ☐ Xeyr
15. Daxil olduğunuz məkanda / yerdə hər hansı bir külqabı var?
    - ☐ Bəli ☐ Xeyr

16. Külqabıda kül və ya siqaret kötüyü var?

☐ Bəli ☐ Xeyr

17. Daxil olduğunuz məkanda / yerdə ətrafda (döşəmənin üzərində, künclərdə və s.) siqaret kötüyü var?

☐ Bəli ☐ Xeyr

18. Daxil olduğunuz məkanın /yerin ayaqyolunda kimsə tütün məmulatı çəkir?

☐ Bəli ☐ Xeyr

19. Daxil olduğunuz məkanın/yerin ayaqyolundan siqaret qoxusu gəlir?

☐ Bəli ☐ Xeyr

20. Daxil olduğunuz məkanın / yerin ayaqyolunda (döşəmənin üzərində, künclərdə və s.) siqaret kötüyü var?

☐ Bəli ☐ Xeyr

21. Daxil olduğunuz məkanın / yerin ayaqyolunda tütünçəkmənin qadağan olunduğu barədə bir və ya daha çox işarə və ya yazı var?

☐ Bəli (____ədəd) ☐ Xeyr

22. Daxil olduğunuz məkanda / yerdə Qanuna uyğun xüsusi ayrılmış tütünçəkmə yeri görürsünüz? *(Heç kim çəkməsə də, həmin yeri görsəniz, "Bəli" cavabını seçin.)*

☐ Bəli ☐ Xeyr

23. Qapalı yerdə, Qanuna uyğun xüsusi ayrılmış tütünçəkmə yerindən kənarda kimsə tütün çəkir?

☐ Bəli ☐ Xeyr

24. Daxil olduğunuz məkanın / yerin girişində əlavə şüşəbənd/tikili var?

☐ Bəli ☐ Xeyr

25. Şüşəbənddə / tikilidə tütündən istifadə olunur?

☐ Bəli ☐ Xeyr

26. Şüşəbənddə / tikilidə bir və ya daha çox işarə və ya yazı var?

☐ Bəli (____ədəd) ☐ Xeyr

27. Məkanın açıq ərazilərinin hər hansı bir yerində, Qanuna uyğun xüsusi ayrılmış tütünçəkmə yerindən kənarda, kimsə siqaret çəkir? (Bu məkanda açıq ərazilər olmadığı təqdirdə "Aid deyil" cavabı seçin və müşahidəni bitirin.)

☐ Bəli

☐ Xeyr

☐ Aid deyil (Müşahidəni bitirin)

*Əlavə 3*

**Tütünçəkmə qadağan olan yerlərdə aparılacaq tədqiqatın**

**MÜŞAHİDƏ VƏRƏQƏSİ**

*(taksi və metronun yeraltı keçidləri üçün)*

***HİSSƏ I. MƏKAN (YER) BARƏDƏ MƏLUMAT***

1. Məkanın adı: ______________________________________________________
2. Ünvan *(rayon qeyd edilməklə)*: ______________________________________
3. Məkanın növü *(yalnız birini seçin)*:
   - ☐ Taksi
   - ☐ Metronun yeraltı keçidi
4. Müşahidənin tarixi: __ / _________ / _______
5. Məlumat toplayanın adı / kodu: _____________________
6. Məkana daxil olma vaxtı: _____________________
7. Məkandan xaric olma vaxtı: _____________________
8. Müşahidənin nəticəsi:
   - ☐ Tamamlanıb *(10-cu suala keçin)*
   - ☐ Tamamlanmayıb
9. Müşahidə tamalanmayıbsa, səbəb:
   - ☐ Məlumat toplayanın məkana girişinə icazə verilmir
   - ☐ Məkan işləmir
   - ☐ Digər ___________________________________

***HİSSƏ II. MÜŞAHİDƏ BARƏDƏ MƏLUMAT***

10. Daxil olduğunuz məkanda / yerdə tütünçəkmənin qadağan olunduğu barədə bir və ya daha çox işarə və ya yazı var?
    - ☐ Bəli (____ədəd) ☐ Xeyr
11. Daxil olduğunuz məkandan / yerdən siqaret qoxusu gəlir?
    - ☐ Bəli
    - ☐ Xeyr
12. Daxil olduğunuz məkanda / yerdə kimsə tütün məmulatı çəkir?
    - ☐ Bəli (yazın, kim çəkir) _______________________
    - ☐ Xeyr
13. Burada tütün çəkənlər hansı növ tütün məmulatından istifadə edir?
    - ☐ Siqaret (____ nəfər)
    - ☐ Elektron siqaret (____ nəfər)
14. Daxil olduğunuz məkanda / yerdə ətrafda (döşəmənin üzərində, künclərdə) siqaret kötüyü var?
    - ☐ Bəli ☐ Xeyr